# Milli Məclisdə görüşlər





Mayın 3-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova ölkəmizdə səfərdə olan Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının (AİPA) Baş katibi Siti Rozaimeriyanti Dato Haji Abdul Rahman ilə görüşüb.

Görüşdə ölkəmizin evsahibliyi ilə keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti, belə tədbirlərin mədəniyyətlərarası dialoqun inkişafında rolu, Milli Məclisin AİPA ilə əməkdaşlığı, Azərbaycanda qadın hüquqlarının tarixi, müasir Azərbaycanın inkişafında qadınların rolu, ölkəmizdə qadınların ictimai həyatın bütün sahələrində iştirakı, gender bərabərliyinə dair qəbul olunmuş qanunlar və qarşıda dayanan məsələlər barədə fikir mübadiləsi aparılıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da danışılıb, qonaqları maraqlandıran suallara cavab verilib.

Görüşdə Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü Tamam Cəfərova və digər rəsmi şəxslər iştirak ediblər.

* * *

Mayın 3-də Milli Məclisdə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün Azərbaycanda səfərdə olan Filippin parlamentinin Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin sədri Maria Reyçel Arenas ilə görüşlər keçirilib.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun qonaqla görüşündə Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" çərçivəsində keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun bəşəriyyəti narahat edən çağırışların müzakirə edildiyi, səmərəli fikir mübadiləsinin aparıldığı mühüm qlobal platformaya çevrildiyi qeyd olunub, Azərbaycanın mədəniyyətlərarası dialoqa töhfələri vurğulanıb.

Söhbətdə Azərbaycanın parlaq Qələbəsi ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra ölkəmizin regionda sülhün möhkəmləndirilməsi, Ermənistanla münasibətlərinin normallaşdırılması istiqamətində təşəbbüsləri, atılan addımlar barədə danışılıb, eləcə də Azərbaycanla Filippin arasında əlaqələrin, əməkdaşlığın dərinləşdirilməsi, parlamentlərarası təmasların inkişaf etdirilməsi və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Sonra Milli Məclisin Filippinlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Müşfiq Cəfərov qonaqla görüşüb.

Tərəflər VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yüksək səviyyədə keçirilməsindən məmnunluqlarını ifadə ediblər, tədbiri Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına növbəti parlaq töhfəsi kimi dəyərləndiriblər.

Söhbətdə Azərbaycanla Filippin arasında münasibətlərin inkişaf perspektivləri müzakirə olunub, parlamentlərarası əlaqələrin möhkəmləndirilməsində qarşılıqlı səfərlərin, parlamentlərdə fəaliyyət göstərən dostluq qrupları arasında təmasların əhəmiyyəti vurğulanıb.



Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

* * *

Mayın 3-də Milli Məclisin deputatı, Azərbaycan-Bosniya və Herseqovina parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Məzahir Əfəndiyev Bosniya və Herseqovina Nümayəndələr Palatasının deputatı Nihad Omeroviç ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Bakıda keçirilmiş VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yüksək səviyyədə təşkilindən məmnunluq ifadə olunub, aparılan müzakirələrin beynəlxalq əməkdaşlığın, həmçinin qlobal və regional sülhün, təhlükəsizliyin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyəti vurğulanıb.

Tərəflər Azərbaycanın parlaq Qələbəsi ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra bölgədə sülhün və sabitliyin təmin olunması istiqamətində atılan addımlar barədə fikirlərini bölüşüblər, tarixin qara ləkələri olan Xocalı və Srebrenitsa soyqırımları kimi faciələrin bir daha təkrarlanmaması üçün davamlı sülh istiqamətindəki səylərin gücləndirilməsinin vacibliyini qeyd ediblər.

Söhbət zamanı Azərbaycanla Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş dostluq əlaqələrinin tarixindən, bugünkü inkişafından, həmçinin müxtəlif sahələrdə münasibətlərin möhkəmləndirilməsi istiqamətində görülən işlərdən danışılıb, qarşılıqlı faydalı əməkdaşlığın perspektivlərindən bəhs edilib. İki ölkə arasında qanunverici orqanlar səviyyəsində əlaqələrin genişləndirilməsi, deputatların dostluq qrupları çərçivəsində, həmçinin beynəlxalq parlament təşkilatlarında qarşılıqlı faydalı əməkdaşlığı ilə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Bosniya və Herseqovina ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Musa Qasımlı, Müşfiq Cəfərov, Cəbi Quliyev və digər rəsmi şəxslər iştirak ediblər.

* * *

Mayın 3-də Milli Məclisin deputatı, Azərbaycan-Argentina parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Vüqar İskəndərov Argentina Parlamentinin deputatı Nahuel Sotello ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin möhkəmləndirilməsi, münasibətlərin inkişafında qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyi vurğulanıb. İqtisadi, sosial, mədəni, turizm sahələrində əlaqələrin genişləndirilməsi üçün potensial imkanların mövcud olduğu qeyd edilib.

Tərəflər Azərbaycan və Argentina parlamentləri arasında əlaqələrin inkişaf perspektivlərindən söhbət açıblar. Deputatlar dostluq qrupları çərçivəsində deputatların səmərəli əməkdaşlığı üçün səylərin artırılması, qanunvericilik sahəsində təcrübə mübadiləsi baxımından mütəmadi görüşlərin keçirilməsinin əhəmiyyəti ilə bağlı fikirlərini səsləndiriblər. Bununla yanaşı, Azərbaycan həqiqətlərinin Argentina ictimaiyyətinə çatdırılmasının önəmindən və bu istiqamətdə görüləcək işlərdən danışılıb.

Söhbətdə Bakıda yüksək səviyyədə təşkil olunmuş VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun dünya ölkələri arasında münasibətlərin inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 4 may, № 91.- S.3.